**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**FİDAN ƏLİAĞA QIZI MƏMMƏDOVA**

# İNFRASTRUKTUR SİSTEMLƏRİNİN İNKİŞAFININ DÖVLƏT PROQRAMLAŞDIRILMASI MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

*İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"*

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## AVTOREFERATI

**BAKI – 2016**

İş Azərbaycan Memarlıq və İnşaat Universitetində yerinə yetirilmişdir

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor **V.T.Novruzov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor **H.A. Xəlilov**
iqtisad üzrə fəlsəfə doktoru , dosent **M.Ə. Əliyev**

**Aparıcı təşkilat:** Azərbaycan Texniki Universitetinin
“Sənayenin iqtisadiyyatı və menecment” kafedrası

Müdafiə “19” “fevral” 2016-cı il saat “$14^{00}$” Azərbaycan Memarlıq və İnşaat Universitetində fəaliyyət göstərən **D.02.042** dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1073/1, Bakı şəh., A.Sultanova küç. 11 Azərbaycan Memarlıq və İnşaat Universiteti, I tədris korpusu, iclas zalı, otaq 317.

Dissertasiya işi ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat “14” “yanvar” 2016-cı ildə göndərilmişdir.

**D02.042 dissertasiya şurasının elmi katibi,**
**f-r üzrə fəlsəfə doktoru, dosent A.M. İsayev**

*Kağız formatı 60x84 1/16,*

*Çap vərəqi: 1.7*
*Sifariş № 78. Tiraj 100.*

***AzMİU***
***Nəşriyyat-Poliqrafiya Mərkəzi***

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ АРХИТЕКТУРНО-СТРОИТЕЛЬНЫЙ УНИВЕРСИТЕТ**

---

*На правах рукописи*

**ФИДАН АЛИАГА КЫЗЫ МАМЕДОВА**

# СОВЕРШЕНСТВОВАНИЕ МЕХАНИЗМА ГОСУДАРСТВЕННОГО ПРОГРАММИРОВАНИЯ РАЗВИТИЯ СИСТЕМЫ ИНФРАСТРУКТУРЫ

*Специальность: 5312.01 – «Отраслевая экономика»*

## АВТОРЕФЕРАТ

**Диссертации на соискание учёной степени доктора философии по экономике**

**БАКУ– 2016**

## DİSSERTASİYANIN ÜMUMİ XAREKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müasir mərhələdə milli iqtiasdiyyat sisteminin səmərəli fəaliyyəti müvafiq infrastruktur təminatının formalaşdırılması və inkişafı ilə bağlıdır. Bu vəzifənin həlli isə, öz növbəsində, həmin yönümdə əlverişli dövlət tənzimlənməsi vasitələrinin tətbiqini nəzərdə tutur.

İqtisadiyyatın zəruri tələblərə cavab verən infrastruktur təminatınının yaradılması bilavasitə dövlətin aparıcı rolunu, dövlət maliyyələşdirilməsi və təşkilatçılığının təmin olunmasını nəzərdə tutur. Müasir dünya praktikası, xüsusilə, inkişaf edən iqtisadiyyatlar şəraitində, infrastrukturların inkişafı sahəsində dövlət fəaliyyətinin həyata keçirilməsi vasitəsi kimi, proqram-məqsədli metodların tətbiqinin üstünlüyüə malik olduğunu sübut edur.

Azərbaycan Respublikasında dövlət müstəqilliyi şəraitində uğurlu islahatların, əsaslandırılmış iqtisadi strategiyaların həyata keçirilməsi çərçivəsində infrastrukturun, o cümlədən enerji təminatı sahəsində infrastruktur sistemlərinin inkişafı əsas prioritetlərin sırasında dayanmışdır. Həmin prioritetlərin reallaşdırılmasının aparıcı vasitəsi isə dövlət proqramlaşdırılması mexanizminin tətbiqi olmuşdur.

Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları, “Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı üzrə (2005-2015-ci illər) Dövlət Proqramı, “Yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı”, “Alternativ enerji təminatına dair Dövlət Proqramı” nda ölkəmizdə zəruri infrastrukturun yaradılması və inkişafı, yeni infrastruktur sistemlərinin yaradılması, mövcud infrastrukturların genişləndirilməsi, yenidən qurulması və modernləşdirilməsi, əhalinin kommunall xidmətlərlə təminatının yaxşılaşdırılması, alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi vəzifələri müəyyən edilmişdir. Eyni zamanda dövlət proqramlarında həmin vəzifələrin reallaşdırılmasına yönəldilmiş tədbirlər kompleksi nəzərdə tutulmuşdur.

Dövlət Proqramlarında müəyyən edilmiş vəzifələrin və müvafiq tədbirlərin həyata keçirilməsi üçün böyük həcmlərdə maliyyə vəsaitləri ayrılmış, zəruri institutsional və təşkilatı tədbirlər görülmüşdür. Bütün bunların nəticəsində enerji təminatı infrastrukturlarının bərpası və yenidən qurulması təmin olunmuşdur. İnfrastruktur sistemlərinin genişləndirilməsi ilə yanaşı, onların yeni tələblərə uyğun olaraq modernləşdirilməsi sahəsində irəliləyişlərə yol açılmışdır.

Dövlət Proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər enerji təminatının səviyyəsinin əsaslı yüksəldilməsinə şərait yaratmışdır. Bu isə,

öz növbəsində, sosial-iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasının mühüm zəmini kimi çıxış edir.

Qeyd edilənlərlə yanaşı, nəzərə almaq lazımdır ki, hələlik enerji təminatı infrastrukturunun inkişafı sahəsində bütün məsələlərin zəruri tələblər səviyyəsində həllinə nail olunmamışdır. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasına uyğun olaraq infrastruktur təminatının yaxşılaşdırılması sahəsində qarşıda duran vəzifələrin həlli ilə əlaqədar, Dövlət Proqramları vasitəsilə enerji təminatında infrastuktur sistemlərinin modernləşdirilməsi məsələlərinin sonadək həlli, bu sistemlərin fəaliyyətini keyfiyyət və səmərəlilik meyarları baxımından daha da yaxşılaşdırılması təmin olunmalıdır. Bu məsələlərin səmərəli həllinndə Dövlət Proqramlarının hazırlanması və reallaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi aktual problem olub, onun tədqiqi xüsusi əhəmiyyətə malikdir.

**Problemin öyrənilmə səviyyəsi.** İqtisadiyyatın inkişafı, o cümlədən infrastruktur təminatı sahəsində dövlət proqramlaşdırılmasının tətbiqi məsələləri Azərbaycan və xarici ölkə alimləri tərəfindən tədqiq edilmişdir.

Azərbaycanın iqtisadçı alimlərindən Z.Səmədzadənin, A.Ələsgərovun, Ş.Muradovun, Ə.Nuriyevin, N.Əliyevin, M.Məmmədovun, Ə.Muradovun, H.Xəlilovun, E.Yusifovun və başqalarının əsərlərində proqram-məqsədli yanaşmanın bir sıra nəzəri və praktiki məsələləri araşdırılmış, dövlət proqramlaşdırılmasının rolu, onun təkmilləşdirilməsi ilə bağlı maraqlı mülahizələr irəli sürülmüş və əməli cəhətdən əhəmiyyətli tövsiyələr hazırlanmışdır.

Xarici ölkələrin alimlərindən D.Nortun, Y.Stiqliçin, N.Meninqin, N.Parisonun L. Erhardın, C. Beylinin, U. Şarpın tədqiqatları dövlət proqramlaşdırılmasının metodoloji aspektlərinin açıqlanması baxımından maraq doğurur. Sistem transformasiyalarının həyata keçirildiyi ölkələrdə dövlət proqramlaşdırılmasının həyata keçirilməsi xüsusiyyətləri A.M. Babaşkinanın, V.İ.Koşkinin, V.P.Oreşinin, B.A.Rayzberqin, A.Q.Lobkonun, F. Şamxalovun, Y.Yaremenkonun əsərlərində araşdırılmışdır.

Göstərilənlərlə yanaşı, nəzərə almaq lazımdır ki, qeyd edilən araşdırılmalarda enerji resursları ilə təminat infrastrukturlarının inkişafının dövlət proqramlaşdırılması məsələləri ayrıca tədqiqat predmeti olmamışdır. Bununla əlaqədar, enerji təminatının həyata keçirilməsi üzrə infrastruktur sistemlərinin inkişafının dövlət proqramlaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi ətraflı surətdə araşdırılmamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi enerji təminatı üzrə infrastruktur təminatının inkişafına proqram-məqsədli yanaşmanın tətbiqi məsələlərinin araşdırılması, dövlət proqramlaşdırılması vasitəsilə infrastruktur sistemlərinin səmərəli formalaşdırılması və ardıcıl təkmilləşdirilməsinə yönəldilmiş mexanizmlərin yaradıması üzrə elmi əsaslandırılmış təkliflərin hazırlanmasından ibarətdır.

Dissertasiyada qarşıya qoyulmuş məqsədin reallaşdırılması ilə bağlı aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- iqtisadiyyatın tənzimlənməsi sistemində dövlət proqramlaşdırılmasının yeri və rolunu araşdırmaq;
- iqtisadiyyatın infrastruktur təminatı probleminin həllində dövlət proqramlaşdırılmasından istifadənin zəruriliyi və əhəmiyyətini açıqlamaq;
- enerji təminatı üzrə infrastruktur sistemlərinin inkişafı məsələlərinin həllində dövlət proqramlaşdırılmasının tətbiqi təcrübəsini təhlil etmək;
- dövlət proqramları vasitəsilə enerji təminatı infrastrukturunun bərpa və inkişaf etdirilməsi mərhələlərini və bu sahədə əsas meylləri müəyyən etmək;
- infrastruktur sistemlərinin inkişafının dövlət proqramlaşdırılması vasitəsilə həllinin yaxşılaşdırılması yollarını araşdırmaq;
- dövlət proqramlarının hazırlanması və reallaşdırılması qaydalarının təkmilləşdirilməsi istiqamətlərini açıqlamaq;
- dövlət proqramları mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi məsələlərini tədqiq etmək.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini Azərbaycan Respublikası iqtisadiyyatınıda enerji təminatı sahəsində infrastruktur sistemləri təşkil edir.

**Tədqiqatın predmeti**. Tədqiqat işinin predmeti enerji təminatı infrastrukturunun inkişafının dövlət proqramlaşdırılması mexanizmləridir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat işinin nəzəri və metodoloji əsaslarını iqtisadiyyatın dövlət proqramlaşdırılması problemlərini araşdıran iqtisadçı alimlərin elmi tədqiqatlarının nəticələri, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərmanları və digər hüquqi normativ aktlar təşkil etmişdir. Tədqiqat zamanı müqayisəli təhlil, məntiqi-sistemli yanaşma, struktur təhlili və digər metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları, Azərbaycan Respublikası Energetika Nazirliyinin, İqtisadiyyat və Sənaye Nazirliyinin,

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin, Beynəlxalq maliyyə qurumlarının məlumatları, müvafiq elmi-tədqiqat qurumları, araşdırma mərkəzlərinin materialları, internet resurslarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- müasir mərhələdə iqtisadiyyatın infrastruktur təminatının formalaşdırılması və inkişaf etdirilməsində proqram-məqsədli yanaşmanın rolu və onu müəyyən edən amillər açıqlanmışdır;
- infrastruktur sistemlərinin bərpası və genişləndirilməsi sahəsində dövlət proqramları mexanizminin tətbiqi təcrübəsinin elmi təhlili aparılmış və proqram-məqsədli yanaşmada əsas götürülən prinsiplər açıqlanmışdır;
- dövlət proqramları vasitəsilə elektrik, istilik enerjisi və qaz təchizatı infrastrukturlarının inkişafı məsələlərinin həlli ilə bağlı müvafiq dəyərləndirmələr aparılmış və gələcək proqramlarda nəzərə alınmalı olan prioritetlər göstərilimişdir;
- dövlət proqramlarının hazırlanması və reallaşdırılmasının təkmilləşdirilməsinə yönəldimiş elmi-metodiki tövsiyələr hazırlanmışdır;
- enerji resursları ilə təminat üzrə infrastrukturların inkişaf məsələlərinin əks olunduğu dövlət proqramlarının əlverişli qaydada əlaqələndirilməsinə dair təkliflər irəli sürülmüşdür;
- enerji təminatı infrastrukturlarının səmərəli inkişaf etdirilməsi vəzifələrinə uyğun olaraq, dövlət proqramlaşdırılması texnologiyasının təkmilləşdirilməsinin əsas istiqamətləri müəyyən edilmişdir;
- dövlət proqramlarının idarə edilməsinin səmərəli mexanizmlərinin yaradılmasına dair təkliflər hazırlanmışdır.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Dissertasiya işində müəllif tərəfindən hazırlanmış təkliflər dövlət proqramlaşdırılması mexanizmindən istifadə əsasında səmərəli fəaliyyət göstərən enerji təminatı infrastrukturu sistemlərinin formalaşdırılmasına, müvafiq infrastruktur xidmətlərinə tələbatların tam və əlverişli şərtlərlə ödənilməsinə, enerji səmərəliliyinin yüksəldilməsi məsələlərinin həllinə imkan və şərait yaradır.

Tədqiqat prosesində əldə edilmiş nəticələr, irəli sürülmüş müddəalar müvafiq istiqamətlər üzrə dövlət proqramlarının hazırlanması, habelə infrastruktur təminatının inkişafı ilə bağlı strateji yönümlü qərarların layihələrinin hazırlanması zamanı istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası və işin nəticələrinin tətbiqi.** Dissertasiya işinin nəticələri Azərbaycan Memarlıq və İnşaat

Universitetində 05 dekabr 2011-ci ildə “Neft-kimya sənayesində qəza risklərinin qiymətləndirilməsi və ekoloji təhlükəsizliyin beynəlxalq problemləri, Azərbaycan Kooperasiya Universitetində 27-28 iyun 2012-ci ildə “Milli iqtisadiyyatın inkişafı və səmərəliliyin yüksəldilməsi” və 22 noyabr 2014-cü ildə “Regional iqtisadi siyasət və kooperasiya münasibətləri” mövzularında keçirilən Beynəlxalq Elmi-Praktiki konfranslarda və seminarlarda məruzə edilmiş və müzakirə edilmişdir. Dissertasiya işində aparılmış tədqiqatlar nəticəsində alınmış nəticələr və təklif olunan metodik materiallardan Azərbaycan Memarlıq və İnşaat Universitetinin “Tikinti-iqtisad” fakültəsində Tikintinin iqtisadiyyatı, Menecment və Marketinq fənnlərinin tədris proqramlarının hazırlanmasında istifadə edilmiş və “Strateji menecment və iqtisadiyyatın idarə edilməsində proqramlaşdırma” fənni üzrə metodik vəsait hazırlanmış və Azərbaycanən Memarlıq və İnşaat Universitetinin TMŞ-nın 13 mart 2013-cü il tarixli qərarı ilə çap edilmişdir.

**Tədqiqatın nəticələrinin nəşr olunması.** Dissertasiyanın mövzusu üzrə ümumi həcmi 7.1 çap vərəqi olan 10 məqalə, 3 tezis, 1 metodik göstəriş və 2 tədris proqramı dərc olunmuşdur.

**İşin quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından (115) ibarət olmaqla 161 səhifədir. Dissertasiyada 11 cədvəl, 28 diaqram və 3 sxem verilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **girişində** mövzunun aktuallığı, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsədi və vəzifələri, obyekti, predmeti əsaslandırılmış, işin elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilmişdir.

**“Sosial-iqtisadi inkişaf mexanizmində dövlət proqramlaşdırılmasının yeri və rolu”** adlanan birinci fəsildə sosial və iqtisadi idarəetmə sistemində dövlət proqramlaşdırılmasının tətbiqinin zəruriliyi və yeri araşdırılmış, proqram- məqsədli idarəetmənin iqtisadiyyatın tənzimlənməsi sistemində rolu açıqlanmış, sistemli yanaşma əsasında dövlət proqramlarının elmi təsnifatı verilmişdir.

Dövlət Proqramlarının tətbiqi iqtisadiyyatın prioritet istiqamətləri üzrə problemlərin həllini və nəzərdə tutulan məqsədə çatmaq üçün zəruri tədbirlərin icra müddətinə müvafiq yerinə yetirilməsini təmin etməkdən ibarətdir. Eyni zamanda nəzərə almaq lazımdır ki, hazırlanan proqramların

əsas məqsədi iqtisadiyyatın inkişafını təmin edən prioritetlərin reallaşması və bu zaman resursların elmi-texniki və sosial tərəqqisinin ən vacib istiqamətləri üzrə yönəldilməsindən ibarətdir. Sahə proqramlarının hazırlanması və onlarda nəzərdə tutulan tədbirlərin reallaşdırılması dövlətin iqtisadiyyatın idarə edilməsində vacib metodu olaraq, rəqabət qabiliyyətli məhsul istehsal edilməsində mühüm əhəmiyyətə malikdir. İqtisadi proqramların vəzifəsi sahənin inkişafının məqsədlərinin formalaşdırılması, həmçinin bu məqsədlərin reallaşdırılmasının maddi və maliyyə vəsaitlərinin müəyyən edilməsidir.

Dissertasiyada idarəetmə sistemində proqramlaşdırmanın əhəmiyyəti açıqlanır. Eyni zamanda, proqramların elmi əsaslandırılmış təsnifat meyarlarının müəyyən edilməsi və həmin meyarlar üzrə proqramların sahələr üzrə təsnifləşdirilməsinin aparılmasının məqsədəmüvafiq olduğu göstərilir. Qeyd olunur ki, məqsədli proqramların qəbul edilmiş vahid təsnifatı olmadığı üçün konkret məqsədlərdən asılı olaraq, bu sahədə tədqiqat aparan mütəxəssislər proqramları müxtəlif sahələrə ayırırlar, vahid bir meyar əsasında ayrılan qruplaşma demək olar ki, müxtəlif sahələr üzrə proqramları tam əhatə etmir. Bununla əlaqədar, həmin məsələyə sistemli baxmaq üçün məqsədli proqramların təsnifatına kompleks yanaşılması və bu zaman formalaşdırılan qruplardakı proqramlara və onlarda nəzərdə tutulan tədbirlərə xüsusi diqqətin verilməsi vacibdir. Bu zaman, əsasən dövlət proqramı vasitəsilə həll edilən problemin xarakteri, proqramın fəaliyyət dairəsinə aid olan obyektlərin əlaməti və proqramın icra müddəti üzrə sistemləşdirilməsinə dair yanaşmaların daha doğru olduğu vurgulanır.

Dövlət Proqramlarında sahənin inkişaf istiqamətləri üzrə tədbirlərin nəzərdə tutulması ilə yanaşı, bu proqramlarda adətən sahələrarası tədbirlər olduğu üçün proqramları təsnifləşdirərkən bütün bu istiqamətlər üzrə tədbirlərin mahiyyətinin nəzərə alınması vacibdir. Bu isə, ilk növbədə, proqramın təsnifat meyarlarının səmərəli seçilməsini zəruri edir. Eyni zamanda bu meyarlar sahələr üzrə dövlət proqramlarının xüsusiyyətlərini və müxtəlif sahələr üzrə hazırlanan proqramlarda nəzərdə tutulan tədbirlərin qarşılıqlı əlaqələrinə uyğun olmalıdır. Dövlət proqramlarının təsnifatının bu proqramda həyata keçirilən tədbirlərin xüsusiyyətləri, onun əhatə dairəsi, proqramın məqsədi, idarə edilməsi və maliyyələşdirmə mənbələri, meyarlar üzrə sistemləşdirilməsi təsnifatın daha səmərəli və əhəmiyyətli olmasını təmin edir. İşdə göstərilir ki, müvafiq meyarlara uyğun olaraq, proqramların sosial-iqtisadi, sahə, elmi-texniki innovasiya, təşkilati-təsərrüfat, ekoloji, elm-təhsil, səhiyyə sahələri üzrə təsnifləşdirilməsi fəaliyyətdə olan və

hazırlanması nəzərdə tutulan proqramların daha səmərəli sistemləşdirilməsi və onların həyata keçirilməsi nəticəsinin daha düzgün qiymətləndirilməsinə imkan verir

Dissertasiyada müvafiq təsnifat üzrə hər bir qrupa daxil olan proqramların məqsədli təyinatı və xüsusiyyətləri açıqlanır.

İşdə, həmçinin, dövlət proqramlarının iqtisadiyyatın bütün sahələrini əhatə etməklə, fərqli icra müddətlərinə və müxtəlif proqramlaşdırma obyektlərinə malik olduğunu nəzərə alaraq, həmin meyarlar üzrə də təsnifatın aparılmalı olduğu göstərilir. Yerinə yetirilmələrindən alınan nəticələri sistemləşdirmək və dəyərləndirmək məqsədilə müddətlərə görə qısamüddətli, ortamüddətli və uzunmüddətli proqramların, obyektlərə görə ümumdövlət, regional, məqsədli və sahə proqramlarının ayrılması təklif olunur.

Dissertasiyada proqramlaşdırmanın milli iqtisadiyyatın inkişafının regional, sahələrarası, elmi-texniki, sosial, ekoloji və sair vacib problemlərinin həllini təmin etmək vəzifəsini onun milli iqtisadiyyatın tənzimlənməsinin mühüm elementlərindən biri olması sayəsində reallaşdırıldığı açıqlanır. Göstərilir ki, proqramlaşdırmada qoyulan məqsədlərə nail olmaq üçün kompleks yanaşma və vəsaitlərin məqsədyönlü paylanması təmin edilməlidir. İqtisadiyyatın dövlət tənzimlənməsinin mahiyyətinə müvafiq olaraq, sahələr üzrə proqramlaşdırmada idarə etmənin bütün mərhələlərində proqramlaşdırmanın direktiv xarakterli planlı bir sənəd olması nəzərə alınmalıdır.

Məqsədli iqtisadi proqramlar hazırlanarkən onun obyektlərinə sahələr, bölgələr, sosial sfera və onun elementləri, elmi araşdırmaların istiqamətləri aid edilir.

İqtisadi proqramlaşdırmanın iqtisadiyyatın dövlət tənzimlənməsində tətbiqi təcrübələrinin tədqiqi göstərir ki, iqtisadi tarazlığın və sabit inkişafın təmin edilməsini məqsəd kimi qoyan, elmi-texniki tərəqqinin nailiyyətləri əsasında sənayenin modernləşdirilməsi, infrastrukturun inkişafı, mənzil tikintisi, işçi qüvvəsinin hazırlanması dinamikasının tövsiyə xarakterli istiqamətlərini müəyyən edən ümummilli xarakterli dövlət proqramları formalaşdırılarkən beş illik planların tərtib edilməsi təcrübəsindən geniş istifadə edilir. Bununla yanaşı müvafiq məqsədlərin reallaşdırılmasına kömək göstərən digər tədbirlər də proqram formalaşarkən nəzərə alınır.

Birinci fəsildə eyni zamanda, dövlət proqramlaşdırılmasının institusional islahatların aparılmasında rolu araşdırılır və göstərilir ki, müvafiq yönümdə hazırlanmış proqramlar bazar infrastrukturunun yaranmasını təmin

edən institusional mexanizmin yaradılmasının mərhələlərdə sahə proqramlarının hazırlanmasının əsasını təşkil etmiş və daha sonra sahə proqramlarının hazırlanmasının əsasını təşkil edən istiqamətverici bir vasitə kimi əhəmiyyətli olmuşdur.

**“Müasir mərhələdə infrastruktur sistemlərinin inkişafının dövlət proqramları vasitəsilə reallaşdırılması”** adlanan ikinci fəsildə elektrik enerjisi, qaz təminatı və istilik təchizatı sahələrində infrastruktur sistemlərinin inkişaf etdirilməsində dövlət proqramlarının rolu məsələləri tədqiq edilmiş, təmin olunmuş irəliləyişlərin əsas istiqamətləri açıqlanmış, enerji təminatı infrastrukturlarının perspektivləri nəzərə alınmaqla, məqsədli proqramlaşdırmanın təkmilləşdirilməsi üzrə vəzifələr göstərilmişdir.

Dissertasiyada qeyd edilir ki, enerji resursları ilə etibarlı və səmərəli təminat bir-biri ilə sıx əlaqəli, sistem halında fəaliyyət göstərən infrastrukturlar tərəfindən həyata keçirir. Etibarlı və səmərəli enerji təminatı təbii xammalın hasilatı, enerjinin istehsalı, nəqli, paylanılması və satışı infrastrukturlarının sistemli fəaliyyəti ilə əlaqədardır. Həmin infrastrukturların bir qayda olaraq dövlət mülkiyyətində və idarəçiliyində olması isə dövlət proqramlaşdırılması mexanizminin onların inkişafının əsas amillərdən birinə çevrilməsini şərtləndirir.

Azərbaycan Respublikasında enerji təminatı infrastrukturlarının müvafiq dövlət proqramları çərçivəsində inkişaf təcrübəsinin elmi təhlili əsasında, müəllif işdə həmin infrastrukturların inkişafının aşağıdakı prinsiplərə müvafiq aparıldığını əsaslandırır:

- Mərhələli yanaşma prinsipi. İnkişaf edən iqtisadiyyatlarda, xüsusilə sistem transformasiyalarını yaşamış ölkələrdə, infrastruktur sistemlərinin baza səviyyəsinin aşağı olması bu sahədə problemlərin konkret bir müddət üçün hazırlanan dövlət proqramı çərçivəsində həllinə imkan vermir. Bununla əlaqədar bir neçə mərhələlərin ayrılması və onların müvafiq dövrlər üçün hazırlanan dövlət proqramlarında nəzərə alınmasına ehtiyac yaranır. Azərbaycanda enerji resursları ilə təminat problemləri mərhələlərə bölünməklə, indiyədək reallaşdırılan regionların sosial-iqtisadi inkişafı üzrə 3 dövlət proqramlarına daxil edilmişdir.
- Kompleksliliк prinsipi. Enerji təminatı infrastrukturlarının müxtəlif vəsilələrinin sinxron inkişafının təmin olunması, onların qarşılıqlı əlaqələrinin, habelə hər birinin digər sistemlərlə əlaqələrinin kompleksli nəzərə alınmasını tələb edir. Bu baxımdan, enerji təminatı probleminin həlli hər bir vəsilənin (istehsal, nəql, paylama, satış) prioritetliyini önə çəkən,

bütövlükdə isə kompleksli həllə yol açan yuxarıda göstərilmiş 6 dövlət proqramı vasitəsilə həyata keçirilir.

- İqtisadi və enerji səmərəliliyinin təmin olunması prinsipi. Bazar iqtisadiyyatı sistemində enerji təminatının həyata keçirilməsi, həm ümumilikdə iqtisadi səmərəlilik meyarının önə çəkilməsinə, həm də enerji sərfiyyatının səmərəliliyinin təmin olunmasının prioritetliliyinə əsaslanır. Həmin vəzifələrin həlli isə, öz növbəsində, dövlət proqramlarına hər bir vəsilə üzrə infrastrukturların modernləşdirilməsinə yönəldilən tədbirlər kompleksinin daxil edilməsi zəruriliyini şərtləndirmişdir.
- Ekoloji məqsədəuyğunluğun reallaşdırılması prinsipi. Enerji resursları ilə təminat sahəsində bu prinsipin reallaşdırılması, müvafiq dövlət proqramları çərçivəsində infrastruktur sistemlərində modernləşdirmə proseslərinin sürətləndirilməsi ilə yanaşı, ekoloji cəhətdən təhlükəsiz olan alternativ enerji mənbələrindən istifadə imkanlarının reallaşdırılmasınının prioritet vəzifələrdən biri kimi nəzərdə tutulması ilə mümkün olur.

Qeyd edilən prinsiplər əsasında həyata keçirilən yanaşmalara uyğun olaraq dövlət proqramları (Azərbaycan Respublikasında enerji təminatı infrastrukturları regionların sosial-iqtisadi inkişafı üzrə 2004-2008, 2009-2013 və 2014-2018-ci illəri əhatə edən Dövlət Proqramları, “Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı üzrə (2005-2015-ci illər) Dövlət Proqramı”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” və “Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı” əsasında inkişaf etdirilir) çərçivəsində elektrik enerjisi ilə təminat sahəsində, ilk növbədə, enerji istehsalının bazası inkişaf etdirilmişdir. Hasilat gücləri artırılmış və modernləşdirilmişdir. Bu sahədə dissertasiyada aşağıdakı əsas istiqamətlər fərqləndirilir:

- Mövcud elektrik stansiyalarının yenidən qurulması.
- İri istilik elektrik stansiyalarının tikintisi.
- Modul tipli elektrik stansiyalarının qurulması.
- Su elektrik stansiyalarının tikilib istifadəyə verilməsi.

Dissertasiyada qeyd edilən istiqamətlər üzrə yerinə yetirilmiş işlər təhlil edilir və vurgulanır ki, dövlət proqramları çərçivəsində elektrik stansiyalarında modernləşdirmə məqsədilə yenidən qurulma işlərinin aparılması, habelə yeni elektrik stansiyalarının tikilməsi elektrik hasilatı güclərinin və elektrik enerjisinin istehsalının həcminin davamlı artmasına imkan vermişdir

(1-ci diaqram). İstehsalın ardıcıl artması sayəsində ölkəmiz elektrik enerjisi idxalçıslndan  onun ixracatçısına çevrilmişdir.

*Diaqram 1*

**2009-2013-cü illər üzrə elektrik stansiyalarının gücü və enerji istehsalının  dinamikası**

Mənbələr: www.stat.gov.az/source/balansı_Luel.




Azərbaycan energetikası. Bakı-2014, səh. 82, 140.

Dövlət proqramlarında nəzərdə tutulan müvafiq tədbirlərin reallaşdırılması paylayıcı şəbəkələrin bərpası və yenidən qurulmasında əhəmiyyətli irəliləyişləri təmin etmişdir.  Həmin şəbəkə əhəmiyyətli dərəcədə yeniləşdirilmiş və genişləndirilmiş, həm də bu proses bütün regionları əhatə etmişdir. Eyni zamanda, enerji sisteminin yüksək gərginlikli şəbəkə təsərrüfatının inkişafı istiqamətində geniş miqyaslı işlər yerinə yetirilmişdir. İşdə bu istiqamətlərdə görülən işlərin sistemli təhlili əsasında göstərilir ki, elektrik təminatı infrastrukturlarının genişləndirilməsi və modernləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər kompleksi yeni, daha səmərəli fəaliyyət göstərən sistemin formalaşdırılması ilə nəticələnmişdir.  Ölkə üzrə elektrik enerjisi hasilatı zamanı,  yanacaq sərfinin azalması ilə yanaşı, elektrik verlişi xətlərində itkilərin həcmi əhəmiyyətli dərəcədə azalmışdır.

Sistemin inkişafı sahəsində əldə edilən uğurlar səmərəlilik göstəricilərinin yaxşılaşdırılmasına imkan yaratmışdır. Ölkə üzrə elektrik enerjisi tutumu göstəricisi  əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.  Bu göstəricinin dinamikası aşağıdakı diaqramda verilmişdir.(2-ci diaqram)

*Diaqram 2*

**ÜDM-ə düşən elektrik enerjisinin istehlakı (kq neft ekvivalenti/1000 manat) 2000-ci ilin qiymətləri ilə**




Mənbə: ARDSK Azərbaycan energetikası Statistik məzənnə. Bakı-2014. Səh. 14.

Göründüyü kimi, 2005-2013-cü illərdə ÜDM-in elektrik enerjisi tutumu 2,3 dəfə azalmışdır. Eyni zamanda, nəzərə almaq lazımdır ki, 2011-ci və 2012-ci illərdə bu göstəricinin özündən əvvəlki ilə nisbətən, aşağı templə də olsa, artması müşahidə edilmişdir. Belə vəziyyətin müvafiq sahə üzrə enerji effektivliyi istiqamətində hazırlanacaq dövlət proqramlarında nəzərə alınmasına ehtiyac vardır.

Dissertasiyada dövlət proqramlarının ölkənin regionları üzrə enerji istehlakının səviyyəsi üzrə disproporsionallığın azaldılmasında mühüm rol oynadığı müəyyən edilmişdir. Bununla yanaşı, bu sahədə müəyyən fərqlərin qaldığı nəzərə alınaraq, müvafiq istiqamətdə yeni dövlət proqramları tərtib edilərkən, əmək ehtiyatları və digər müvafiq resurslardan səmərəli istifadə edilməsinin tam nəzərə alınmaqla sənaye və əhali qrupları üzrə enerji istehsalı və istehlakı səviyyəsinin yaxşılaşdırılması məsələlərinə xüsusi diqqət yetirilməlidir. Eyni zamanda, qeyd edilir ki, proqramlar hazırlanarkən ilk növbədə enerji təhlükəsizliyinin təmin edilməsi, enerji səmərəliliyin daha da artırılması və bərpa olunan enerji mənbələrindən daha geniş istifadə olunmasına yönəlmiş prioritet tədbirlərə geniş yer verilməlidir.

Dissertasiyada dövlət proqramlarının təbii qaz və istilik təminatı infrastrukturunun inkişafında rolu geniş təhlil edilir.

Azərbaycan Respublikasında müasir mərhələdə qaz təminatı infrastrukturlarının modernləşdirilməsi və yeni infrastrukturların yaradılması 5 dövlət proqramının tədbirlər planına daxil edilmişdir. Eyni zamanda aşağı-

dakı sxemdən də göründüyü kimi həmin proqramların əhatə etdiyi dövrlər əsasən üst-üstə düşür.

**Qaz təminatı infrastrukturlarının inkişafına yönəlmiş müvafiq dövlət proqramlarının əhatə dövrləri**




Belə yanaşma, proqram-məqsədli idarə etmənin qaz təminatı problemlərinin həllində səmərəli vasitə kimi rolunun yüksəldilməsini təmin etmişdir.

Birincisi, dövlət proqramlaşdırılması qaz təminatında etibarlılığa nail olunmasına zəminlərin yaradılmasına yönəldilmişdir. Müvafiq proqramlar çərçivəsində qaz hasilatının artırılması istiqamətində zəruri və genişmiqyaslı tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur. Bunlar isə, ilk növbədə, ilkin xammal təminatında idxaldan asılılığın aradan qaldırılması və beləliklə də sistemin fəaliyyətində fasiləsizliyə zəmanət yaratmışdır.

İkincisi, qaz təsərrüfatı infrastrukturlarının səmərəli fəaliyyət göstərən sistem kimi formalaşdırılması xətti reallaşdırılmışdır. Dövlət Proqramlarında həm qaz hasilatı, nəqli və emalı infrastrukturlarının və həm də qaz paylaşdırılması üzrə infrastrukturların modernləşdirilməsinə yönəlmiş kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Üçüncüsü, müvafiq dövlət proqramlarında qaz təchizatı infrastrukturlarının mərhələlərlə genişləndirilməsi prosesinin davam etdirilməsi nəzərdə tutulur.

Dördüncüsü, dövlət proqramları qaz təminatı inrfastrukturunun dayanıqlı sistem kimi fəaliyyətinə yönəldilmişdir. Bu istiqamətdə müasir dünya təcrübəsinə uyğun satış inrfastrukturunun formalaşdırılması, sağlam maliyyə təminatının qurulması təmin edilir.

Dissertasiyada müvafiq təhlilər əsasında, dövlət proqramlarının həyata keçirilməsi nəticəsində qeyd edilən istiqamətlərin hər biri üzrə ölkədə irəliləyişlərə nail olunduğu göstərilir. Dövlət Proqramlarının icrası ilə bağlı, ölkədə qazlaşmanın yeni mərhələsinə başlanılmış, ölkə regionlarının qazlaşdırılması istiqamətində genişmiqyaslı tikinti-quraşdırma və təmir-bərpa işləri aparılmış, "mavi yanacaq"la təchiz olunmayan yaşayış massivləri qazlaşdırılmışdır. Ümumilikdə 2004-2012-ci illərdə regionlarda 17615,2 kilometr qaz xətti çəkilmiş və təmir edilmiş, 22 qaz təmizləyici və paylayıcı məntəqə quraşdırılmış və təmir olunmuşdur.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, aşağıdakı qrafikdən də aydın olduğu kimi hələlik qaz təminatı sistemində itkilərin mütləq və nisbi kəmiyyətləri nisbətən yüksək olaraq qalmaqdadır.

**Azərbaycan Respublikasında təbii qaz itkiləri ***




* Azərbaycan Energetikası, statistik məcmuə Bakı 2014. Səh. 72 məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Məlumatlardan aydın olduğu kimi, təbii qaz itkilərinin həcminin (sol şkala) mütləq kəmiyyəti ayrı-ayrı illər üzrə qalxıb ensə də, ortamüddətli

dövrdə bu göstəricinin müəyyən qədər artımı müşahidə edilmişdir. İtkilərin nisbi həcminin dinamikası üçün də oxşar vəziyyət səciyyəvi olmuşdur. İtkilərin ümumi təchizata yönəldilən həcminə nisbətinin kəmiyyəti (sağ şkala) son illərdə müəyyən qədər aşağı düşsə də, ümumən, yüksək olaraq qalmaqdadır.

Qeyd edilənlərlə əlaqədar, qarşıdakı dövrdə də proqram məqsədli idarəetmədə qaz təminatı sistemlərinin fəaliyyətində səmərəliliyin yüksəldilməsi məsələsi prioritet olaraq qalmaqdadır.

İşdə istilik enerjisi ilə təchizat infrastrukturunun inkişafı məsələləri də təhlil edilir. Dövlət proqramları vasitəsilə istilik təchizatı infrastrukturunun genişləndirilməsi ilə yanaşı, onun modernləşdirilməsi məsələlərinin də diqqət mərkəzində saxlanılması və bu əsasda, ilk növbədə, təchizat sistemində itkilərin azaldılmasının təmin edilməli olduğu göstərilir.

Ikinci fəsilin sonuncu bölməsində alternativ və bərpa olunan enerji təminatına dair dövlət proqramları tədbirlərinin sosial-iqtisadi əhəmiyyəti təhlil olunur və bu sahədə qəbul olunmuş dövlət proqramının ölkənin enerjiyə olan tələbatı, dayanıqlı inkişafın təmin olunması tələblərinə uyğun ödənilməsində rolu açıqlanır.

**“İnfrastruktur sistemlərinin inkişafının dövlət proqramlaşdırılması mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətləri”** adlanan üçüncü fəsildə dövlət proqramlarının hazırlanması və reallaşdırılmasının metodik əsaslarının təkmilləşdirilməsi, sosial-iqtisadi inkişaf və sahə proqramlarının əlaqələndirilməsi, dövlət proqramları tədbirlərinin icraçılarının fəaliyyətinin yaxşılaşdırılması və dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi məsələləri tədqiq edilir.

İşdə müvafiq dünya təcrübəsinə istinadən, məqsədli proqramlaşdırmanın uğurlu tətbiqinin zəruri şərtlərinədən birinin proqramların metodiki təminatının zəruri tələblər səviyyəsində formalaşdırılmalı olduğu göstərilir. Eyni zamanda, vurğulanır ki, ölkəmizdə iqtisadi proqramlaşdırmanın hazırlanması və tətbiqi sahəsində vahid metodika hazırlanmamış və bu, sahələr üzrə proqramların hazırlanması mərhələsində bir sıra çatışmazlıqlara və nöqsanlara yol verilməsinə səbəb olmuşdur. Bunları nəzərə alaraq, proqramların hazırlanmasında əsas metodoloji prinsiplərin müəyyən olunmasına ehtiyac yaranır.

Dissertasiyada göstərilir ki, proqramlar tərtib edilərkən onların zəruriliyini müəyyən edən sahənin prioritet istiqamətləri üzrə tədbirlər həlledici olmalıdır. Proqram hazırlanarkən onun icra müddətinə müvafiq səmərəli həyata keçirilməsini təmin edən amilləri zəruri edən şərtlər geniş

araşdırılmalıdır. Sahələr üzrə formalaşdırılan proqramlarda nəzərdə tutulan tədbirlərin bu sahənin prioritet istiqamətlərinin yerinə yetirilməsini təmin edən şərtlər kimi xarakterizə edilir. Proqramların hazırlanmasının metodoloji əsaslarından biri də sahə üzrə tədbirlər müəyyən edilərkən tədbirin vacibliyi, təxirəsalınmamazlığı və onun həyata keçməsini təmin edən resurs mənbələrinin vəziyyətinin dəyərləndirilməsindən ibarətdir. Bu tədbirlər üzrə resurs mənbələri dəyərləndirilərkən proqramda nəzərdə tutulmayan lakin baxılan istiqamətdə olan digər tədbirlərin resurs təminatı məsələləri də nəzərə alınmalı və əlaqələndirilməlidir. Ölkə üçün əhəmiyyətli olan problemlərin həllinə yönəldilmiş məqsədli proqramlar hazırlanarkən problemin əhəmiyyətliliyi, onun həllində sahə üzrə innovasiya yönümlü texnologiyaların tətbiqi və onun istehsal sahəsinin səmərəliliyinin yüksəldilməsində rolu, həlli vacib olan problem üzrə müxtəlif sahələr üzrə tərtib olunan proqramların əlaqələndirilməsi digər amilləri nəzərə alınmalıdır.

Proqramların hazırlanması zamanı onun informasiya təminatı, tədbirlərin həyata keçirilməsinə çoxşaxəli yanaşma, proqramların hazırlanma və həyata keçmə mərhələlərinin idarə edilməsinin koordinasiyanın təmini, bu məqsəd üçün nəzərdə tutulan resurslardan istifadə səmərəliliyinin dəyərləndirilməsi məsələləri həll edilməlidir. Proqramın hazırlanma prosesində göstərilənlərlə yanaşı, hər bir proqram üzrə sahənin spesifikasiyası, onun inkişafının proqnoz göstəriciləri, tədbirlərin həyata keçirilməsi üsul və metodları və tədbirlərin optimal icra müddəti və bu məqsədlə nəzərdə tutulmuş resursun istifadəsinin optimal istiqamətləri də nəzərə alınmalıdır. Ölkədə proqramlaşdırma təcrübəsinin araşdırılmasına, əsasən xüsusi qeyd etmək lazımdır ki, ümumiyyətlə proqramın hazırlanması çox mərhələlidir. Bu mərhələlərin sırasına proqramın məqsəd və vəzifəsinin müəyyən edilməsi, sahənin müvafiq dövrlər üzrə inkişaf prosesinin araşdırılması, buna müvafiq ilkin tapşırıqların, iş planın hazırlanması proqramın strukturu, yəni alt proqramlarının və onda nəzərdə tutulması planlaşdırılan tədbirlərin müəyyən edilməsi aid edilməlidir. Müəllifin fikrincə, qeyd olunanlarla yanaşı, statistik və proqnoz göstəricilərə əsaslanaraq, tədbirlərin müəyyən edilib qiymətdirilməlidir. Bununla yanaşı, istiqamətlər üzrə bu tədbirlərin vacibliyi müzakirə edilərək dəyərləndirilməsi, sahələrarası tədbirlərin mənsub olduğu sahənin müəyyənləşdirilməsi, icra məsuliyyəti və ona nəzarət (monitorinq) mexanizminin hazırlanması və həyata keçirilməsinin təmin olunması kimi məsələlər proqramlar hazırlanarkən mühüm vəzifələr kimi nəzərə alınmalıdır.

Qeyd olunan metodoloji əsasların dövlət proqramlarının hazırlanmasının bütün mərhələlərində daimi nəzərə alınması proqramın daha mükəmməl formalaşmasını və son nəticədə icra müddətinə müvafiq səmərəli yerinə yetirilməsini təmin edə bilər.

Müsair mərhələdə proqram-məqsədli idarəetmənin təkmilləşdirilməsinin mühüm istiqamətlərindən biri sahə və sosial-iqtisadi inkişaf proqramlarının səmərəli əlaqələndirilməsinin təmin olunmasıdır. Dissertasiyada bu istiqamətdə ölkəmizdə toplanılmış təcrübə geniş təhlil olunur. Sahələr üzrə hazırlanmış proqramların Yoxsulluğun azaldıması və davamlı inkişaf üzrə dövlət proqramı, Azərbaycan Regionlarının sosial-iqtisadi inkişafı üzrə proqramlarla səmərəli əlaqələndirilməsinin, prioritet sahələrinin inkişafı ilə yanaşı, enerji təminatı, ərzaq təhlükəsizliyi, məşğulluq, yoxsulluq və digər vacib problemlərin uğurla həllində mühüm vasitə olduğu açıqlanmışdır. Eyni zamanda, proqramlar hazırlanarkən çoxşaxəli inkişaf baxımından aşağıdakıların nəzərə alınmasının əhəmiyyətli ola biləcəyi göstərilir:

- İstehsal olunan məhsullar üzrə xammal-işçi resurslarının səviyyəsi;
- Yeni yaradılacaq müəssisələrin istehsal etdiyi məhsullara daxili və xarici bazarlarda tələbat;
- Sosial-iqtisadi sahələrin fəaliyyətinin monitorinqinin aparılması və dəyərləndirilməsi;
- Nəqliyyat və digər infrastrukturların vəziyyətinin öyrənilməsi və onların inkişaf perspektivlərinin müəyyən edilməsi;
- Həyata keçirilən tədbirlərin reallaşdırılma vəziyyətinin monitorinqinin aparılması, icranın səmərəliliyinin qiymətləndirilməsi;
- Hesabat dövründə tədbirlərin reallaşdırılmasına ayrılan büdcə və digər mənbələrdən yönəldilən vəsaitlərdən istifadə səviyyəsinin monitorinqinin aparılması, artıq xərclərin və yaxud qənaət olunmuş vəsaitlərin həcmlərini müəyyən edərək perspektivdə bu göstəricilərdən yeni proqramların hazırlanmasında istifadə etməli;
- Sahələrarası tədbirlərin müəyyənləşdirilməsi və bu tədbirlərin icra vəziyyətinin dəyərləndirilməsi;
- İcra müddəti, icraçılar, onların səlahiyyətləri;
- Proqramda nəzərdə tutulan məqsədlər, sahəni tənzimləyən normativ-hüquqi sənədlər və onlardan istifadə qaydaları;
- Proqram tərtib edilərkən onun məzmununda sahənin inkişaf proqnozlarının nəzərə alınması və cari vəziyyətin xarakteristikasının verilməsi;

- Sosial, maliyyə-iqtisadi və digər risklərin təhlilinin aparılması və dəyərləndirilməsi;
- Proqramda "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında sahə üzrə inkişaf strategiyaları, burada nəzərdə tutulan hədəflər və gözlənilən nəticələrin nəzərə alınması;
- Oxşar sahələr üzrə proqramların hazırlanmasında beynəlxalq təcrübələrin və müvafiq göstəricilərin müqayisəli təhlilinin aparılması və onlardan sahənin xarakterik xüsusiyyətini nəzərə almaqla istifadə edilməsi;
- Proqramda nəzərdə tutulan məqsəd və vəzifələrin ardıcıl yerinə yetirilməsini təmin etmək üçün bu tədbirlərin həyata keçirilməsinin optimal ardıcıllığının müəyyən edilməsi.

Müəllifin fikirincə, qeyd edilənlərin nəzərə alınması ölkənin sosial-iqtisadi inkişafına yönəldilmiş proqramlarda ayrı-ayrı sahələrin ardıcıl inkişafını təmin edən tədbirlərin müəyyən edilməsi və onların səmərəli icra mexanizminin hazırlanmasında xüsusi əhəmiyyətə malikdir.

Dissertasiyada məqsədli proqramların həyata keçirilməsində dövlət-özəl sektor əməkdaşlığının rolu araşdırılır və onun müəyyən edilmiş məqsədlərə və strateji inkişaf hədəflərinə nail olunmasında mühüm zəminlərdən biri kimi çıxış etdiyi açıqlanır.

Ölkə iqtisadiyyatının inkişafı sahəsində hazırlanan dövlət proqramlarının həyata keçirilməsində özəl sektora aid təsərrüfat subyektləri də iştirak edir.

Dövlət sektoru ilə yanaşı, özəl sektor da bazar iqtisadiyyatının tələblərinə uyğun qaydada müvafiq sahənin prioritet istiqamətləri üzrə tərtib edilmiş proqramların icrasına cəlb edilir. Belə ki, dövlət proqramlarında demək olar ki, iqtisadiyyatın bütün sahələri üzrə nəzərdə tutulan tədbirlərin icra edilməsinə sahibkar fəaliyyəti birbaşa və yaxud yardımçı vasitə kimi nəzərdə tutulmuş və onların iştirakı təmin edilmişdir.

Proqramlarda nəzərdə tutulan tədbirlərin reallaşdırılmasında dövlət və özəl sektorun iştirakının əlaqələndirilməsinin məqsədi güclü şaxələndirilmiş iqtisadiyyatın yaradılmasından ibarətdir. Bu fəaliyyət bazar iqtisadiyyatı mexanizmləri əsasında proqramlar çərçivəsində sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə yerli və xarici investisiyaları, müasir texnologiyaları cəlb etmək və müasir idarəetmə təcrübəsindən səmərəli istifadə etməklə rəqabətədavamlı məhsul istehsal edən müəssisələrin, yeni iş yerlərinin yaradılması və son nəticədə ölkə iqtisadiyyatının dinamik inkişafını təmin etməyə yönəldilmişdir.

Dövlət proqramlarında yuxarıda qeyd olunan məqsədlərə çatmaq üçün dövlət və özəl sektorların qarşılıqlı fəaliyyətlərini təmin etməklə ölkənin qeyri-neft sektorunun səmərəli inkişafını təmin edilməsi infrastruktur təminatının yaxşılaşdırılması, ixracyönümlü məhsul istehsalının stimullaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətində nəzərdə tutulan tədbirlərin icrası prioritet məsələlər kimi qoyulmuş və onlar digər amillərlə yanaşı ölkə iqtisadiyyatının inkişafına və onun dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasının sürətlənməsinə şərait yaratmışdır.

## ƏSAS NƏTİCƏLƏR

1. Dövlət proqramlaşdırmasının tətbiq obyektləri arasında milli iqtisadiyyatın infrastruktur sferası mühüm yer tutur. Məqsədli proqramlar vasitəsilə müvafiq resursların istehsal və sosial infrastruktur sistemlərinin formalaşmasına yönəldilməsi, bu sistemlərin genişləndirilməsi və modernləşdirilməsi son nəticədə sosial-iqtisadi inkişaf üçün əlverişli zəminlərin yaradılmasını təmin etmiş olur. Ölkəmizdə dövlət müstəqilliyi şəraitində həyata keçirilən institusional quruculuq, sosial-iqtisadi inkişaf proqramları, habelə ayrı-ayrı sahələrin inkişafına yönələn dövlət proqramları çərçivəsində milli iqtisadiyyatın infrastruktur sistemlərinin, o cümlədən enerji resursları ilə təminat, infrastrukturların bərpası və inkişafı ilə bağlı çoxsaylı və müxtəlif istiqamətlər üzrə tədbirlər müəyyənləşdirilmiş və həyata keçirilməsi təmin edilmişdir.

2. Enerji təminatı infrastrukturlarının inkişafı məsələlərinin həllinə proqram-məqsədli yanaşmanı onların genişmiqyaslı, resurstutumlu habelə, mürəkkəb quruluşlu olmaları obyektiv zərurətə çevirir. Enerji təminatı infrastrukturları çoxpilləli olmaqla vertikal strukturlu sistemlər (təbii xammalın hasilatı, enerji istehsalı, nəqli, paylanması və satışı vasilələrindən ibarət olmaqla) kimi formalaşırlar. Dövlət proqramlaşdırılması həmin sistemin bütün vasitələrinin qarşılıqlı əlaqəli surətdə inkişafı və fəaliyyətinə əlverişli şərait yaratmaqla enerji təminatının zəruri tələblərə uyğun səviyyəsi və səmərəliliyini təmin etməyə imkanlar verir.

3. Proqram məqsədli yanaşma:

- enerji təminatı üzrə infrastruktur sistemlərinin hər birinin kompleks inkişafı tələblərini reallaşdırmağa;

• enerji təminatı infrastruktur sistemlərinin bərpası və inkişafının mərhələlərlə, hər bir dövr üçün müvafiq prioritetləri önə çəkməklə həyata keçirilməsinə;

• enerji təminatı infrastrukturlarının müvafiq tələbləri ödəməsi tələbləri nəzərə alınmaqla genişləndirilməsi ilə yanaşı, infrastruktur sistemlərinin modernləşdirilməsi məsələlərinin həllinə;

• Ayrı-ayrı enerji növləri ilə təminatın iqtisadi səmərəliliyinin və ölkədə enerji səmərəliliyinin yüksəldilməsi üzrə tədbirlər sisteminin həyata keçirilməsi əsasında həmin istiqamətdə irəliləyişlər əldə edilməsinə şərait yaradır.

4. Məqsədli proqramlaşdırma enerji təminatı sahəsinin infrastruktur sistemlərinin dayanıqlı inkişaf tələblərinə uyğun inkişaf etdirilməsində də əhəmiyyətli rol oynayır. Müvafiq dövlət proqramlarında enerji səmərəliliyinin yüksəldilməsi üzrə tədbirlərinin reallaşdırılması, enerji istehsalında bərpa olunmayan resursların istifadəsinin üstünlük təşkil etdiyi şəraitdə, ətraf mühitə düşən yükün nisbi göstəricilərinin xeyli yaxşılaşdırılmasına səbəb olur. Bununla yanaşı, xüsusi dövlət proqramı çərçivəsində alternativ və bərpa olunan mənbələrin istifadəsi əsasında enerji istehsalı üzrə infrastrukturun formalaşması və inkişafı enerji təhlükəsizliyinin təmin olunması tələblərinə əməl olunmasında getdikcə daha böyük əhəmiyyət kəsb etməyə başlayır.

5. Qarşıdakı dövrlərdə ölkəmizdə enerji təminatı üzrə infrastruktur sistemlərinin təkmilləşdirilməsi və keyfiyyətcə yeni səviyyəyə qaldırılması məqsədləri reallaşdırılacaqdır. Bunu nəzərə alaraq, dövlət proqramlarında infrastruktur sistemlərinin inkişafının strateji yönümlərinin gücləndirilməsi məqsədəuyğundur. Məqsədli proqramların ölkənin sosial-iqtisadi inkişafında mühüm əhəmiyyətə malik olan enerji təminatı sahəsində strateji sıçrayışlara nail olunmasında daha səmərəli vasitə kimi çıxış etməsinin təmin olunması zəruridir. Eyni zamanda, proqramların hazırlanması və reallaşdırılması metodologiyası və texnologiyasının ardıcıl olaraq təkmilləşdirilməsi təmin edilməlidir. İnfrastruktur sistemlərinin inkişafı üzrə dövlət proqramlaşdırılması təcrübəsinin araşdırılmasının nəticələrini nəzərə alaraq,bu sahədə ilk növbədə aşağıdakı istiqamətləri fərqləndirmək olar:

- Proqramların obyektlərinin seçilməsi, məqsəd və vəzifələrin əsaslandırılması, tədbirlər sisteminin formalaşdırılmasının bir-birini qarşılıqlı surətdə tamamlamasının təmin olunması. Eyni zamanda proqramlarda nəzərdə tutulan tədbirlərin innovasiya yönümlü texnologiyaların tətbiqinin mühüm vəzifə kimi qarşıya qoyulması;

- Məqsədli proqramların resurs təminatının həcmi və strukturu dəqiq əsaslandırılmalıdır. Bununla yanaşı, proqramın həyata keçirilməsi gedişində

mənbələr üzrə resurs təminatında obyektiv səbəblər üzündən baş verə bilən dəyişikliklərin çevik reallaşdırılması mexanizmi hazırlanmalıdır;

- Məqsədli proqramlarda hədəflərin kəmiyyətcə ifadə oluna bilən göstəricilərlə müəyyən olunmasına üstünlüyün verilməsi;

- Proqramların tam və səmərəli reallaşdırılması tələblərinə uyğun insan resursları ilə təminat məsələlərinin həlli, bütün mərhələlər üzrə kadr hazırlığı və yenidən hazırlığın təmin olunmasının prioritet vəzifələr sırasına daxil edilməsi;

- Məqsədli proqramların hər biri üzrə struktur xüsusiyyətləri nəzərə alınmaqla formalaşdırılan tədbirlərin icrası üzrə işlərin səmərəli surətdə yerinə yetirilməsinə imkan verən təşkilati strukturun yaradılması;

- Proqramın idarə edilməsi mexanizminin icraçılarının fəaliyyətinin əlaqələndirilməsinin səmərəli təşkili və qərarların qəbulunda çevikliyin təmin edilməsi tələblərinə uyğun qurulması;

- Proqramların həyata keçirilməsinin praktikada səmərəli nəticələr vermiş müasir monitorinq qaydalarının geniş tətbiq edilməsi və onun nəticələrinin proqramın icrasının gedişi ilə bağlı qərarların qəbulunun əsasında dayanması;

- Proqramın reallaşdırılması gedişində nəzarət əsasında müəyyən dəyişikliyin aparılması barədə qərarın həmin dəyişikliyin tədbirin aid olduğu sahədə, habelə onunla əlaqəli sahələrdə vəziyyətə real təsiri dəyərləndirməklə qəbul olunması;

6. Enerji təminatı infrastrukturu sistemlərinin inkişafı məsələlərinin eyni vaxtda bir neçə dövlət proqramında əks olunması müvafiq yönümdə səmərəli əlaqələndirmənin təmin olunması zəruriliyini önə çəkir. Enerji təminatı üzrə müxtəlif proqramlarda qoyulmuş məqsəd və vəzifələr,habelə konkret tədbirlərin son nəticədə vahid sistemin elementləri kimi formalaşdırılması vacibdir. Ayrı-ayrı proqramlar çərçivəsində müəyyən edilmiş tədbirlərin yönümünə, yerinə yetirilmə müddətinə, resurslara və icraçılara görə uyğunlaşdırlması təmin edilməlidir.

7. Müasir mərhələdə infrastruktur sistemlərinin inkişafı üzrə proqramlarda prioritetlərin "bərpa və genişləndirilmə"dən "modernləşdirmə"yə keçirilməsi, sistemlərin səmərəli fəaliyyəti problemlərinin həllinə üstünlük verilməsi məqsədəuyğundur.

8. Müvafiq dünya praktikası nəzərə alınmaqla, dövlət proqramlarında enerji effektivliyi məsələlərinin önə çəkilməsi, bu istiqamətdə qanunvericilik bazasının formalaşdırılmasının sürətləndirilməsi və proqramlara beynəlxalq qurumlar və xarici tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsi ilə

bağlı tədbirlərin daxil edilməsi zəruridir. Dövlət proqramları çərçivəsində nəzərdə tutulan tədbirlər kompleksi son nəticədə enerji səmərəliliyi göstəricilərinin yaxşılaşdırılmasında davamlılığın təmin edilməsinin etibarlı zəminlərini formalaşdırılmalıdır.

9. Enerji təminatı sahəsində infrastruktur sistemlərinin modernləşdirilməsi üzrə məqsədli proqramlar çərçivəsində nəzərdə tutulan tədbirlərin uğurla həyat keçirilməsinə nail olmaq üçün icraçı şirkətlərin fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi, habelə qabaqcıl dünya təcrübəsinə uyğun olaraq, proqramların reallaşdırılmasında dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi məqsədəuyğundur.

**Dissertasiya işinin əsas elmi müddəaları dərc olunmuş aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:**

1. M.A.Məmmədov, F.Ə.Məmmədova Neft-qaz kompleksində sahələr üzrə investisiya qoyuluşunun və tikinti-quraşdırma işlərinin təhlili və inkişaf istiqamətləri “Fövqəl”- Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi problemləri üzrə mütəxəssislər assosiaasiyasının 15 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans, AzMİU, Bakı-2012, səh 129-132.

2. C.S.Xəlilov, F.Ə.Məmmədova, Ə.M.Turkamani Sahibkarlıq fəaliyyətinin inkişafında tikinti texnikası lizinqinin rolu “Fövqəl” – Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi problemləri üzrə mütəxəssislər assosiaasiyasının 15 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans, Bakı-2012, səh 136-138.

3. M.A.Məmmədov, F.Ə.Məmmədova, C.Ş.İbrahimov “Azərbaycan-2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının prioritet istiqamətləri və Proqramlar Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsinə həsr olunmuş beynəlxalq elmi konfrans, Kooperasiya Universiteti, Bakı-2012, səh 155-160.

4. N.A.Əliyev, M.A.Məmmədov, F.Ə.Məmmədova Dövlət və bələdiyyə idarə edilməsi Tədris proqramı, “Memar Nəşriyyat Poliqrafiya” MMC, Bakı-2013, səh 9-11.

5. Н.А.Алиев, М.А.Мамедов, Ф.А.Мамедова Инвестиционный менеджмент Tədris proqramı, “Memar Nəşriyyat Poliqrafiya” MMC, Bakı-2013, səh 7-9.

6. N.A.Əliyev, M.A.Məmmədov, F.Ə.Məmmədova Strateji menecment və iqtisadiyyatın idarə edilməsində proqramlaşdırma, Metodik göstəriş, AzMİU Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı-2013, , səh 26-28.

7. M.A.Məmmədov, F.Ə.Məmmədova Ölkə iqtisadiyyatında institusional islahatların aparılmasında proqramlaşdırma amili Azərbaycan Elmi

Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu, Elmi əsərlər, Bakı-2013, səh 67-71.

8. F.Ə.Məmmədova Neft-qaz sektorunun regionların xidmət sahələrinin inkişafında rolu İpək Yolu jurnalı, Bakı-2013, səh 31-36.

9. M.A.Məmmədov, F.Ə.Məmmədova Ölkə iqtisadiyyatında institusional islahatların aparılmasında proqramlaşdırma amili, Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu, Elmi əsərlər, Bakı – 2013, səh 67-71.

10. F.Ə.Məmmədova Neft-qaz sektorunun regionların xidmət sahələrinin inkişafında rolu, İpək Yolu jurnalı, Bakı – 2013, səh 31-36.

11.Ф.А.Мамедова Социально-экономических значение мероприятий государственных программ в обеспечении страны альтернативной и возобновляемой энергией «Экономика и предпринимательство», Journal of Economy and entrepreneurship, Москва, 2014, səh 6-63.

12.Ф.А.Мамедова Роль государственной программы в развитии инфраструктуры обеспечения электроэнергией регионов Азербайджана «Экономика и предпринимательство», Journal of Economy and entrepreneurship, Москва, 2014, səh 148-149.

13.F.Ə.Məmmədova Dövlət proqramlarının hazırlanmasının metodik əsaslarının təkmilləşdirilməsi "Neft-kimya sənayesində qəza risklərinin qiymətləndirilməsi və ekoloji təhlükəsizlik problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, AzMİU, Bakı-2014, səh 148-149.

14.M.A.Məmmədov, F.Ə.Məmmədova, Ş.S.İsmayılova Sənaye müəssisələrində innovasiya yönümlü texniki-texnologiyanın tətbiqi istiqamətləri İpək Yolu jurnalı, Bakı-2014, səh 99-103.

15.M.A.Məmmədov, F.Ə.Məmmədova Məqsədli dövlət proqramlarının zəruriliyi və proqramların təsnifatı Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Elmi əsərlər IV buraxılış, Bakı-2014, səh 44-49.

16.F.Ə.Məmmədova Dövlət proqramlarının reallaşdırılmasında dövlət və özəl sektorların əməkdaşlığı "Real iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafı" beynəlxalq konfrans, Kooperasiya Universiteti, Bakı-2015, səh 471-475.

17.F.Ə.Məmmədova Qaz təminatı və istilik sistemlərinin inkişafında dövlət proqramlarının tətbiqinin əhəmiyyəti Azərbycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Elmi əsərlər V buraxılış, Bakı-2015, səh 120-123.

**Фидан Алиага гызы Мамедова**

# Совершенствование механизма государственного программирования развития системы инфраструктуры

## Резюме

Диссертация состоит из введения, трех глав, заключение и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, определены целы, объект и предмет исследования, научная новизна и практическая значимость диссертации.

В первой главе работы показано место и необходимость внедрения государственного программирования в системе социально-экономического управления, раскрыта роль программно-целевого управления в системе регулирования экономикой, дана научная классификация государственных программ на основе научного подхода.

Во второй главе диссертации исследованы вопросы роли государственных программ в развитии системы инфраструктуры в отраслях энерго-, газо- и теплоснабжения, раскрыты основные направления продвижения, показаны задачи по совершенствованию целевого программирования с учетом перспектив энергообеспечения инфраструктуры.

В третьей главе диссертации исследуются вопросы совершенствования методических основ реализации и разработки государственных программ, взаимосвязь социально-экономического развития и отраслевых программ, улучшение деятельности исполнителей мероприятий государственных программ и расширения сотрудничества государственного и частного сектора.

В заключении обобщены результаты проведенного исследования и сформированы выводы и предложения

**Fidan Mamedova Aliagha**

**Improvement of mechanism of the public programming for development of infrastructure**


**Summary**

The thesis consists of Introduction, Three Chapters, Conclusion and a list of references.

The relevance of the theme are substantiated and goals, object and subject of study, scientific novelty and practical significance of the thesis are defined in the Introduction.

The First Chapter deals with place and necessity of application of public programming in the system of socio-economic governance as well as the role of results -based management in the regulation system of economy is revealed, the scientific classification of public programs based on scientific approach are given in this chapter.

The role of public programs in the development of infrastructure in the sector of electricity, gas and heat supply are investigated, the main directions of promotion are revealed, tasks to improve targeted programming, taking into account the prospects of energy infrastructure are highlighted in the Second Chapter.

The Third Chapter of the dissertation explores issues of perfection of methodical bases of the realization and the design of public programmes, the relationship of socio-economic development and sectoral programmes, improvement of activities of public program executors and the expansion of cooperation between the state and the private sectors.

The results of the study are summarized and output and proposal are generated in the Conclusion.